*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 noyabr 2016-cı il № 91 (2106) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir

*Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu strategiyası müasir dövrümüzdə onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son bir neçə ilin məqsədyönlü hərbi islahatları isə ordumuzun inkişafında mütərəqqi bir mərhələnin başlandığını sübuta yetirdi. Azərbaycan Ordusu məhz bu islahatların uğurlu nəticəsi olaraq daha da inkişaf edərək dünyanın qabaqcıl orduları sırasındadır.*



Azərbaycan cəmiyyətində ordu quruculuğuna olan dəyərli münasibət, heç şübhəsiz, aprel zəfərindən sonra qat-qat artıb. Bu gün hər bir ölkə vətəndaşı əsgərimizə güvənclidir və inanır ki, qısa bir müddətdə Azərbaycan Ordusu tükənməz Vətən sevgisi ilə başqa ərazilərimizi də işğaldan təmizləməyə qadirdir.

"Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir". Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu sözləri cəbhə xəttində hərbçilərlə görüşündə deyib.

Həmin günlərdə ordumuzun başqa bölmələrində xidmət edən hərbi qulluqçular da düşmən üzərinə hücuma keçmək üçün bircə əmr gözləyirdilər. Qazaxda, Daşkəsəndə, Tovuzda və başqa rayonlarımızda xidmət edən əsgərlər də xalqımıza qələbənin sevincini yaşatmış igidlərin arasında olmaq istəmişdilər. Doğrudan da, aprel savaşı Azərbaycan əsgərlərinin yüksək vətənpərvərlik ovqatını göstərə bildi.

Azərbaycan Silahlı Qüvvələrində şəxsi heyətin döyüş ruhunun yüksəlməsinə təkan verən əsas amil Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğıdır. Hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində son illər dövlətimizin rəhbərliyi tərəfindən ardıcıl addımlar atılır. Nəinki paytaxtımızda, həmçinin cəbhə xəttinə yaxın rayonlarda müasir hərbi şəhərciklər tikilərək zabit və gizirlərin ixtiyarına verilir. Hərbçi hiss edəndə ki, dövlət başçısı onun mənafeyi üçün hər cür imkanlar yaradır, o zaman daha ürəklə xidmət etməyə səy göstərir. Əslində, ömrünü çətin bir peşəyə bağlamış insanların bütün qayğıları dövlətimizin diqqət mərkəzindədir. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, hərbçilər Vətənimizi qorumaq kimi ən şərəfli bir vəzifəni yerinə yetirdikləri üçün daim diqqət və qayğıya layiqdirlər.

Dövlət başçısının vətənpərvərlik nümunəsi artıq ordu rəhbərliyində də dəyərli bir örnək yaradıb. Son vaxtlar elə bir ay olmaz ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla ordunun rəhbərliyi cəbhə xəttində olmasın. Müdafiə naziri əsgərlərin bütün qayğıları ilə maraqlanır və cəbhə xəttində şəxsi heyətin güzəranını yaxşılaşdırmaq üçün konkret tapşırıqlarını verir. Nazir ordunun rəhbər zabit heyəti ilə keçirilən tədbirlərdə daim vurğulayır ki, səngərdə döyüş növbətçiliyini həyata keçirən hərbi qulluqçuların qayğılarına həssas yanaşmaq və bütün məsələləri yerindəcə həll etmək lazımdır. "Bu gün çətin təbii şəraitdə və düşmənlə üz-üzə mövqelərdə döyüş tapşırıqlarını yerinə yetirən gənclərimiz cəmiyyətin ən dəyərli övladlarıdır", - deyən Müdafiə naziri də böyük əminliklə bildirir ki, dövlətin və xalqın güclü dəstəyinə güvənən Azərbaycan Ordusunun şəxsi heyəti yeni qəhrəmanlıq səhifələri yaratmağa qadirdir.

Azərbaycanın əsgər və zabitlərinin qəhrəmanlıq nümunələrini yüksək dəyərləndirən Prezident İlham Əliyev hərbçilərlə görüşündə bir məsələni də vurğuladı ki, aprel döyüşləri dərsliklərə salınmalıdır. "Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir... Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi". Doğrudan da, aprel qələbəmiz cəmiyyətimizə əsl vətənpərvərlik örnəyi oldu, xalq-ordu birliyini daha da gücləndirdi. Bu döyüşlər vaxtı minlərlə vətəndaşımız cəbhə xəttinə axışaraq orduya dəstəyini nümayiş etdirdi. Aprel döyüşləri günlərində mülki insanlar komandirlərə yaxınlaşaraq konkret köməklərini təklif edirdilər.

Aprel qələbəsi gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Ailə və məktəblərdə, ictimai yerlərdə həmin döyüşlərin qəhrəmanları, şəhid olan igidlərimizin mənalı ömür və döyüş yolu layiqli təbliğ olunmalıdır. Gənclərimiz, sabahın əsgərləri olacaq şagirdlərimiz qəhrəmanları yaxşı tanımalı, onları özlərinə nümunə seçməlidirlər. Gərək hər bir vətəndaşımız qüdrətli ordumuzla fəxr etsin və qürur duysun. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan Ordusu yenilməz ordudur. "Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir".

**"Azərbaycan Ordusu"**

# Azərbaycan ilə Böyük Britaniya arasında hərbi-texniki əməkdaşlığın geniş perspektivləri müzakirə olunub

*Noyabrın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Kerol Meri Krofts ilə görüşüb.*



Regiondakı hərbi-siyasi vəziyyətin və qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirə edildiyi görüşdə Azərbaycan-Böyük Britaniya əməkdaşlığının səviyyəsindən məmnunluq ifadə olunub.

Tərəflər ölkələrimiz arasında hərbi-texniki sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu və bu imkanların genişləndirilməsinin vacibliyini vurğulayıblar. Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi təhsil sahəsində əldə olunan razılaşmaların inkişaf etdirilməsinin, hərbi ingilis dili kurslarının davamının və onların dinləyicilərinin sayının artırılmasının zəruriliyi də xüsusi qeyd edilib.

İki ölkə arasında müdafiə, terrorizmə qarşı mübarizə və sülhməramlı əməliyyatlar sahələrində əməkdaşlığa dair fikir mübadiləsinin də aparıldığı görüşdə Müdafiə naziri vurğulayıb ki, Ermənistan separatizmin, terrorizmin və ekstremizmin mənbəyidir. Bu, təkcə Azərbaycan üçün deyil, bütün region üçün təhlükədir. Bu təhlükənin qarşısının alınması üçün bütün beynəlxalq qurumlar birgə fəaliyyət göstərməlidirlər.

Britaniyalı diplomat da öz növbəsində regional sabitlik və təhlükəsizliyə yeni çağırış və təhdidlərlə mübarizədə birgə səylərin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Sonra britaniyalı diplomat ölkəsinin Azərbaycanda yeni təyin olunmuş hərbi attaşesi polkovnik-leytenant Deyvid Ethelli nazirə təqdim edib.

Hərbi attaşeni Azərbaycanda hərbi-diplomatik missiyasına başlaması münasibətilə təbrik edən Müdafiə naziri ona ölkələrimizin Silahlı Qüvvələri arasında əlaqələrin genişləndirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Hərbi Hava Qüvvələrinin cəbhəboyu zonada yerləşən üç hərbi hissəsində yeni yaşayış kompleksləri istifadəyə verilib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin döyüş hazırlığının yüksəldilməsi, hava məkanımızın müdafiəsinin gücləndirilməsi və şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin cəbhəboyu zonada yerləşən üç hərbi hissəsinin ərazisində yeni istifadəyə verilmiş yaşayış komplekslərinin açılışında iştirak edib.

Müdafiə Nazirliyinin rəhbərliyi ərazilərdəki hava hücumundan müdafiə bölmələrinin döyüş texnika və vasitələrinə, eləcə də yeni istifadəyə verilən qərargahlar, əsgər yataqxanaları, yeməkxanalar, qazanxanalar, tibb məntəqələri, digər xidməti və inzibati otaqlara baxış keçirib.

Məruzə olunub ki, yaradılan şərait şəxsi heyətin gündəlik xidmətinin təşkilinə effektiv təsir göstərəcək, habelə hava məkanımızın daha etibarlı qorunması məqsədilə döyüş hazırlığı və döyüş növbətçiliyinin yüksək səviyyədə təşkilini, aparılmasını təmin edəcək.

Hərbi hissələrin komandir və şəxsi heyəti ilə görüşən nazir müvafiq tapşırıqlar verib.

* * *



Cəbhəboyu zonada səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov tikintisi davam edən bir neçə hərbi obyektdə olub və inşaat işlərinin gedişini yoxlayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tikinti işlərinin keyfiyyəti ilə maraqlanan Müdafiə naziri müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

# "ABŞ Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verir"

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Amerika Birləşmiş Ştatlarının dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brinki ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və ABŞ arasında iqtisadiyyat, enerji, terrorizmə qarşı mübarizə, sülhməramlı əməliyyatlar və digər sahələrdə uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edilib, ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi üçün səylərin artırılmasının vacibliyi qeyd olunub.

Bridcet Brinki Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş əsnasında çox faydalı müzakirələrin aparıldığını bildirib. O, ABŞ-ın Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verdiyini və mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb. B.Brinki deyib ki, ABŞ hökuməti Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyaya yardımını və terrorizmə qarşı mübarizədə töhfəsini yüksək qiymətləndirir.

Elmar Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında geniş məlumat verib. Status-kvonun qəbuledilməzliyini vurğulayan nazir ATƏT-in Minsk Qrupunun digər həmsədrləri ilə birlikdə ABŞ tərəfindən münaqişənin həlli istiqamətində səylərin artırılmasının vacibliyinə diqqəti çəkib.

Elmar Məmmədyarov Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat və enerji layihələrindən söz açıb və bu layihələrin reallaşdırılmasında ABŞ-ın dəstəyinin təqdir olunduğunu deyib.

Görüşdə qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" keçirilir

Azərbaycan Silahlı Qüvvələrində NATO-nun Müttəfiq Transformasiya Komandanlığının ekspert qrupu tərəfindən "NATO günləri" tədbiri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi general-mayor Odd Egil Pedersenin (Norveç) rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasını, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzini, eləcə də Əməliyyat İmkanları Konsepsiyası və Silahlı Qüvvələrin digər bölmələrini ziyarət edəcəklər.

Tədbir çərçivəsində Silahlı Qüvvələrin zabit heyəti üçün "NATO-nun komandanlıq strukturu", "Azərbaycan-NATO əməkdaşlığı", "Strateji öncəgörmə analizi", "NATO-da əməliyyatların planlaşdırılması prosesi", "Əməliyyat İmkanları Konsepsiyası", "NATO Varşava Zirvə Toplantısından sonra", "NATO-Cənubi Qafqaz tərəfdaşlığı" və digər mövzularda mühazirələr təqdim olunacaq.

Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" noyabrın 25-dək davam edəcək.

# Azərbaycan və İtaliyanın Müdafiə nazirliklərinin mülki-hərbi əməkdaşlıq üzrə ekspertləri arasında görüş keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və İtaliya Respublikası Müdafiə Nazirliyi arasında 2016-2017-ci illər üçün ikitərəfli hərbi əməkdaşlıq Planı"na əsasən, noyabrın 22-də Azərbaycanın Müdafiə Nazirliyində hər iki ölkənin Müdafiə nazirliklərinin mülki-hərbi əməkdaşlıq üzrə ekspertləri arasında görüş keçirilib.*



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyevin rəhbərliyi ilə keçirilən görüşdə mülki-hərbi əməkdaşlığa dair təcrübə mübadiləsi aparılıb. Görüşdə, həmçinin, Silahlı Qüvvələrdə mülki-hərbi əməkdaşlıq sahəsində qabaqcıl təcrübənin öyrənilməsi məsələləri müzakirə edilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**22 noyabr 2016-cı il**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 25 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Barekamavan, Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şıxlar, Mərzili, Baş Qərvənd, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

### Ön xətdən reportaj

# "Biz də xalqımızı qələbə ilə sevindirəcəyik!"

*Dan yeri hələ sökülməyib. Payızın yağmurlu bir səhərində axşamdan çökmüş dumanın təsiri də var. Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinə yaxınlaşıram. Əsgərlər "Ey ana torpaq, budur yol ancaq, Azadlıq uğrunda son döyüşə hazır!" oxuya-oxuya səhər yeməyinə gedirlər. Onların gur səsində məğrurluq, mətinlik, qələbəyə inam var. Bu səs məni bir anlıq ordumuzun yarandığı ilk illərə aparır. O zaman ordumuz da, əsgərlərin sıra yerişində oxuyacağı mahnılar da yeni yaranırdı. Həmin dövrdə yazılan mahnılar bu gün də sevilə-sevilə oxunur...*

...Hərbi hissədə ilk olaraq zabit Elçin Kərimovla görüşürəm.

- Cəbhəyanı ərazidə bütün qoşun növlərinin cəlb edildiyi irimiqyaslı təlim yenicə başa



çatıb, - deyə zabit bildirir. - Müdafiə Nazirliyinin rəhbərliyi təlimin gedişinə nəzarət edib. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev təlimi izləyib. Ordumuzun döyüşə hazırlığı və erməni işğalı altında olan torpaqlarımızı azad etmək üçün Vətən oğulları yüksək əhval-ruhiyyədədir. Azərbaycan Prezidenti İlham Əliyev döyüş növbətçiliyində və təlimdə fərqlənən bir qrup hərbi qulluqçumuza üzərində "Azərbaycan Respublikası Prezidenti adından" sözləri yazılmış qol saatları hədiyyə edib.

Söhbətimizdən sonra ölkə başçısının mükafatlandırdığı hərbi qulluqçularla görüşüb ürək sözlərini qələmə almaq istəyimi bildirdim.

İllər öncə tanıdığım zabit Nemət Məmmədovla idman şəhərciyində görüşdüm. Şəhərcikdə böyük canlanma vardı. Ehtiyat bölmələr idman hazırlığından normativlər verirdilər. Zabit Nemət Məmmədov hər bir əsgərin istər turnikdə dartınma, istər paralel qollarda, istərsə də 3 kilometr məsafəyə qaçışda əldə edəcəyi nəticələrlə yerindəcə tanış olmaq qərarına gəlmişdi. O, əsgərlərin idman normativləri üzrə nəticələrindən razı görünürdü. Zabit dedi ki, hərbi qulluqçu vəzifəsindən və rütbəsindən asılı olmayaraq ilk növbədə yüksək fiziki hazırlığa malik olmalıdır. Bu məqsədlə də onlar tez-tez id-



man şəhərciyində olur, tələb olunan normativləri yerinə yetirirlər.

Ölkə başçısı tərəfindən mükafat alan əsgərlərdən söhbət açan müsahibim baş leytenant Abbas Səfərovun adını çəkdi. Bildirdi ki, bu zabitin komandiri olduğu bölmə həm döyüş hazırlığı, həm də nizam-intizam baxımından daim fərqlənir. "Düşmənlə onların arasında məsafə çox yaxındı. Bu əsgərlərin sayıqlığı nəticəsində düşmən mövqelərimizə bir addım belə yaxınlaşa bilməz. Günün istənilən vaxtı ciddi müşahidə aparılır, təhlükəli ərazilər daim nəzarət altında saxlanılır."

Baş leytenant Abbas Səfərov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bir neçə ildir bitirib. İlk gündən zabit kimi burada xidmətə başladığını deyir. Əslən Hacıqabul rayonundan olan bu hərbçi xidmətdə fərqləndiyinə görə Müdafiə naziri, birlik və birləşmə komandirləri tərəfindən dəfələrlə fəxri fərman alıb. Bu yaxınlarda mükafatlar sırasına daha mötəbəri əlavə olunub. Bu günlərdə Ali Baş Komandanın cəbhə bölgəsində təltif etdiyi hərbçilər arasında Abbas Səfərov da olub.

Həmsöhbət olduğum gənc leytenant Hikmət Mirzəyev də aprel döyüşlərinin iştirakçısıdı. Həmin savaşdan sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub. Bu günlərdə ölkə başçısı tərəfindən verilən qiymətli hədiyyə onu daha da ruhlandırır. Döyüşdə və təlimlərdə yüksək göstəricilər əldə etdiyinə görə Ali Baş Komandan onun da əlini sıxıb.

Gizir İmran Rmixanov da qol saatı ilə təltif olunanlardan biridi. Bundan əvvəl isə "Hərbi xidmətlərə görə" medalına layiq görülüb. Xudat şəhərində doğulub boya-başa çatan İmran beş ildən artıqdır ki, düşmənlə üz-üzə dayanır. Vətənin müdafiəsində əzmlə xidmət edir.

Digər həmsöhbətim əsgər Tahir Eyvazov əslən Füzuli





rayonundandır. Doğma yurdunu ermənilərdən qorumaq onun da başlıca amalıdır. Tahir deyir ki, xalqımızın sarsılmaz birliyi torpaqlarımızın tezliklə işğaldan azad edilməsinə səbəb olacaq. Mükafata layiq görülənlərdən biri də əsgər Tahir Eyvazovdur.

Söhbətləşdiyim əsgərlərin hər biri aprel döyüşləri haqqında qürurla, böyük inamla danışdı. Apreldə yaşanılmış sevinci yaxınlarda da yaşayacağımıza bir daha inandım. İnandım ki, danışıqlar baş tutmasa, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

Bu döyüşçülərlə söhbət etdikcə ürəyim dağa dönürdü: onlar döyüşə yenə də hazırdılar. "Təki Vətən yaşasın" deyirlər. Döyüşçülərlə görüşdən ayrılıb başqa bölməyə üz tuturuq. Yol uzunu təlimdən qayıdan dəstə-dəstə əsgərlərin oxuduqları mahnının sədaları ətrafa yayılır...

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Nümunəvi xidmət*

# Vətənpərvərliyin təməli ailədə yaranır

*Azərbaycan xalqının malik olduğu mənəvi dəyərlərdən danışanda ailədə vətənpərvərlik tərbiyəsinin üzərində geniş dayanırıq. Valideynlər övladlarına Vətəni sevməyi, onun uğrunda can əsirgəməməyi də aşılayırlar. Bu gün elə bir azərbaycanlı ailəsi tapılmaz ki, övladlarını hərbi xidmətə, Vətənimizin müdafiəsinə toy-bayramla yola salmasın. Ata-analar oğul böyüdəndə ona öyüd-nəsihət verərək üzərində boy atıb gəzdiyi doğma yurdu daim qorumağa hazır olmağın gərəkliyini izah edirlər. Təsadüfi deyil ki, oğul düşmən çəpəridir. Hazırda qanıyla, canıyla, bütün varlığıyla vətənpərvər olan nəsil yetişir. "Vətən daşı" olmağı bacaran oğullarımızın sayı minlərlədir.*

Bu yaxınlarda cəbhə xəttində tanış olduğum vətənpərvər döyüşçülərimizdən biri - kiçik çavuş Ələsgər Mehdiyev Ağdamın Mahrızlı kəndində doğulub boya-başa çatıb. Uşaq vaxtından güllə səsinə diksinib, böyüdükcə ermənilərin onun da ata-baba ocağında törətdikləri vəhşiliklər haqqında böyüklərindən, müəllimlərindən eşidib, öyrənib. Ələsgərin vətənpərvər ruhda böyüməsində əsas rol oynamış bir səbəb də 1986-cı ildə Gürcüstanda baş vermiş güclü sel daşqını nəticəsində öz ömrünü insanların xilasına həsr etmiş və bu zaman həyatını qurban vermiş həmyerlimiz Rahib Məmmədovun yaxın qohumu olmasıdır. Oxuduğu orta məktəb də onun adına əbədiləşdirilib. Bu məktəbin 15 məzunu erməni işğalçılarına qarşı Qarabağ savaşında şəhid olub.

- Müddətli həqiqi hərbi xidmətimi başa vurandan sonra ordu sıralarında qalıb cəbhə bölgəsində xidmətimi davam etdirmək qərarına gəldim, - deyə Ələsgər söhbətimizdə bildirir. - Doğulub boya-başa çatdığım Ağdam rayonu qədim Qarabağımızın dilbər guşələrindən biridir. Buradan Şuşaya gedən yol neçə illərdir ki, öz yolçularına həsrət qalıb. Hər dəfə bu yoldan ayrılıb evimizə gedəndə qəlbimi dərin kədər bürüyür. Atam danışır ki, hər il yay fəslində Şuşanın səfalı yerlərinə gedib əsrarəngiz təbiətini seyr edərdik. İndi Şuşanın "Xarı bülbülü" sadəcə xəyallarımızda canlanır. Mən taleyimi hərbə bağlayıb birbaşa ön xətdə xidmət etmək qərarına gələndə torpaqlarımızı tezliklə yağıların tapdağından azad etməyi düşünmüşəm. Bu gün Qarabağımız düşmən əlindədirsə, biz rahat yaşaya bilmərik. Damarlarında azərbaycanlı qanı axan hər kəs özünü döyüşlərə hazır bilməlidir. Əgər torpaqlarımız sülh yolu ilə qaytarılmasa, bir nəfər kimi silaha sarılmalıyıq.



Bu fikirlər cəbhə xəttində vəzifə borcunu şərəf və məsuliyyət hissi ilə yerinə yetirən bir əsgərin aydın mühakiməsidir. Əslində, Azərbaycan əsgəri bu fikirdədir, düşməni torpaqlarımızdan çıxarmaq hər birinin amalıdır. Ordunun generalından tutmuş sıravi əsgərinə kimi hamı döyüş ovqatındadır. Xalqımız, dövlətimiz də Azərbaycan zabitinin, əsgərinin gücünə güvənir. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev bu yaxınlarda Füzuli bölgəsindəki "N" hərbi hissəsində çıxışında qeyd etdi ki, ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Doğrudan da, hər dəfə hərbi hissələrimizdə ezamiyyətdə olanda onların igidliyinin, fədakarlığının şahidi oluruq.

Kiçik çavuş Ələsgər Mehdiyev bir manqa komandiri olaraq düşmənlə təmas xəttində Vətən borcunu böyük məsuliyyətlə yerinə yetirir. Öz vəzifələrinin sirlərini mükəmməl bilməklə gənc silahdaşlarına hərbi həyata xas olan vacib xüsusiyyətləri həvəslə aşılayır. "Bir neçə il əvvəl mən də ordumuzun sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşam. Gənc əsgərlərə hərbi xidmətin bütün incəliklərini izah edirəm. Düşmənlə ara məsafəmiz az olduğuna görə, döyüş növbətçiliyini həyata keçirən əsgərlərin qorxmazlıq, cəsurluq kimi mənəvi keyfiyyətlərə sahib olması başlıca şərtdir. Aprel döyüşləri ordumuzun ən yeni qəhrəmanlıq səhifəsidir və bu döyüşlərdə qələbə qazanmağımızın əsas səbəbi Vətənimizə sıx tellərlə bağlı olmağımızdır. Mən də bu döyüşlərin iştirakçısı olmuşam və düşmən üzərində qələbəmizi təmin edən amilləri tabeliyimdə olan şəxsi heyətə ətraflı çatdırmağa çalışıram."

Kiçik çavuş Ələsgər Mehdiyevin söhbətindən belə bir əminlik duyuruq ki, Azərbaycan əsgəri aprelin əvvəllərində olduğu kimi, yenə də düşmənə öz gücünü göstərməyə və tariximizin hünər, rəşadət dolu yeni səhifələrini yaratmağa qadirdir.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

*Minnətdarlıq*

# Hərbi hissədə gördüklərimiz bizi sevindirir

Hörmətli redaksiya! Silahlı Qüvvələrimizin bütün hərbi hissələrində keçirilən "Açıq qapı" günündə biz də iştirak etdik. Ailəmlə birlikdə yaşadığımız Şəki şəhərindən oğlumun xidmət etdiyi hərbi hissəyə getdik. Hər oğul Vətənə xidmət etməlidir. Oğlum Mahalı hərbi xidmətə yola salanda da ona bu sözləri öyüd kimi demişdim. Sevinirəm ki, layiqli xidmətiylə başımızı uca edir.

Əsgər anası olduğuma görə şərəf duyuram.

O, beş aydır ki, Azərbaycan Ordusunda qulluq edir. Atıcı peşəsinə yiyələnib. Nümunəvi əsgərlərdən biridir, komandirləri də onun xidmətindən razıdırlar.

Biz buraya əvvəllər də gəlmişdik. Qürur hissi keçirirəm ki, bu gün bizim səliqəli, intizamlı hərbi hissələrimiz, bacarıqlı zabitlərimiz, hazırlıqlı ordumuz var. Əsgərlərə gözəl şərait yaradılıb. Hərbi hissənin, demək olar ki, hər yerilə tanış olduq. Hər şey ürəyimizcədir. Silahlı Qüvvələrimizə bu qədər diqqət və qayğı göstərdiyinə görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımızı bildiririk.

Arzu edirəm ki, ordumuz işğal edilmiş torpaqlarımızı düşməndən azad etsin, qaçqınlarımız-köçkünlərimiz öz dədə-baba torpaqlarına qayıtsınlar. Millətimizə, xalqımıza firavanlıq, müvəffəqiyyət diləyirəm.

**Şərafət MƏMMƏDOVA,
əsgər anası**

# Tarixdə əbədiləşən qəhrəmanlarımız

*Zaman-zaman şəhid oldular torpaq uğrunda Vətən oğulları... Canından, qanından keçdi, şəhid oldu Vətən oğulları... Oğullarımız "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" deyərək döyüş meydanlarına atıldılar. Düşmənin hücumlarını qəhrəmancasına dəf edərək "bir qarış torpağımdan belə keçmərəm" söylədi Qabil, Şövqiyar, Əhməd, Yusif, Mübariz, Fərid, Murad, Samid.... Onların hər biri Azərbaycanımızın şanlı hərb tarixində yeni səhifələr yazan qəhrəmandır.*



Xalqımızın azadlığı, ölkəmizin müstəqilliyi və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan Vətən övladlarının adı qəlbimizdə hər zaman yaşayacaqdır. Müdriklərimizin gözəl deyimi var: "İgid ölər, adı qalar". Bəli, onların qısa, lakin şərəfli ömür yolu zamanın hər dönəmində gəncliyə bir örnəkdir.

Bu gün qürurverici haldır ki, bütün hərbi hissələrimizdə Azərbaycanın Milli Qəhrəmanlarının tanıdılması istiqamətində böyük işlər aparılır. Eyni zamanda, hər bir hərbi hissənin şəhid qəhrəmanları haqqında məlumat lövhələri ərazidə, baxımlı guşələrdə yerləşdirilir. Şəxsi heyətə onların keçdiyi döyüş yolundan mütəmadi olaraq danışılır, qəhrəmanlarımıza həsr olunan filmlər nümayiş etdirilir.

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində Milli Qəhrəmanlarımıza və hərbi hissənin şəhid döyüşçülərinə həsr olunmuş lövhənin önünə toplaşan şəxsi heyətlə rastlaşırıq. Onlar hərbi hissəyə yeni gələn əsgərlərdir. Xidmətə başlayan hər bir əsgərə əvvəlcə hərbi hissənin keçdiyi döyüş yolu və şəhid qəhrəmanları haqqında məlumatlar verilir. Onlar Qarabağ müharibəsində ərazi bütövlüyümüz uğrunda döyüşərək canından keçən Milli Qəhrəmanlarımız haqqında məlumatlı olmağa çalışırlar. "Qəhrəmanlarımızı tanıyaq" lövhəsi də bu məqsədlə yaradılıb.

Aprelin əvvəllərində ordumuzun əks-hücum əməliyyatları zamanı şəxsi heyətin göstərdiyi rəşadət hərbi hissənin döyüş tarixində yeni parlaq səhifədir. Şəhid kapitan Nəcməddin Savalanovun adı hərbi hissənin tarixinə şərəflə yazılıdı. Onun haqqında divara vurulmuş lövhədən oxuyuruq: "Kapitan Savalanov Nəcməddin Akif oğlu İmişli rayon Göbəktala kəndində anadan olub. 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və 2007-ci ildə həmin məktəbi bitirərək leytenant rütbəsi alıb. 2 aprel 2016-cı il tarixdə Tərtərin Qapanlı-Seysulan istiqamətində gedən döyüşlərdə ağır yaralanıb. Mayın 8-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında aldığı çoxsaylı qəlpə yaralarından dünyasını dəyişərək şəhid olub. İmişli rayon Göbəktala kənd qəbiristanlığında dəfn olunub."

Lövhədə hərbi hissənin digər şəhidi barədə də məlumat yer alıb. "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kazımov Etibar Xudavi oğlu Goranboy rayonunun Safıkürd kəndində anadan olub. 26 mart 2015-ci il tarixdə ön xətt boyunca mühəndis tapşırıqlarını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub."

Bəli, torpaq uğrunda şəhid olan Vətənin mərd, qəhrəman övladlarının adları yaddaşlara köçür.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# “Ürək Vətən üçün döyünməlidir!”

(oçerk)

*Uşaqlığına, yeniyetməliyinə söykənən gəncliyi onun dünyagörüşünü formalaşdırıb. Dünyanı dərk eləyib, başəriliyin nə olduğunu duyub. Ömrünü bəşəriliyə həsr etmək istəyib; təbiblik - bəşərilikdi, insanlığa xidmətdi...*

Onu da başa düşüb ki, sevə-sevə yaşadığın, yaşatmalı olduğun torpaq - Vətəndi. Məqamında can fəda edə bilmək duyğusudu Vətən sevgisi. Ürəyini Vətənə ürək bilməlisən ki, özünü Vətənin bir parçası hesab edəsən...

Dübrar dağının əzəməti, Ata çayın dalğalarının həzin pıçıltısı, Qars meşəsinin kölgəsinə gün düşməyən ağacların duruşu uşaqlığından yaddaşına hopub. Bu gün də könlü oralara çəkir Vahidi. Çəkir ki, zamanında eşitdiklərini ömrün bu yaşında da eşitsin: insanları sev, insanları sevə-sevə yaşa!..

Tanrıya ən yaxın insanlardı həkimlər. İnsanların sağlamlığının, şəfasının, şəfqətinin cəfakeşləridi onlar...

Hərdən düşünürəm: təbiət mülayimliyi həkimlərdən öyrənib bəlkə? Həzin-həzin əsən meh ağacların xırda yarpaqlarını necə ehtizaza gətirirsə, həkim nəvazişi də sağlamlığımıza beləcə qayğı göstərir...

Vahid İsmayılov Silahlı Qüvvələrin Baş Klinik Hospitalının urologiya bölməsinin ordinatorudu. Çöhrəsində nur, mərhəmət, baxışlarında xeyirxahlıq və qayğıkeşlik işartıları... Onunla təmasda olanları sevindirməyə, sağlam yaşamağa, gözəlliklərdən zövq almağa, qurub-yaratmağa həvəsləndirir sezilən bu işıq.

1971-ci ildə Sumqayıt şəhərində anadan olub. Uşaq yaşlarından həkim olmaq, insanlara kömək etmək, ən çətin, ümidsiz anlarında onların əlindən tutub ayağa qaldırmaq istəyib. Orta məktəbi Xızı rayonunun Altıağac kəndində bitirib. 1988-ci ildə Sumqayıt Tibb Məktəbinə daxil olub. 1989-1991-ci illərdə dağılmaqda olan İttifaqda müddətli həqiqi hərbi xidmətdə olub. Vətəninə döndükdən sonra tibb məktəbini bitirib. Bu zaman ermənilər ərazi iddiasına başlamışdılar. Vahid könüllü olaraq Vətənin müdafiəsinə yollanır. 1992-1994-cü illərdə taborun tibb bölüyündə tibb işçisi kimi Ağdam istiqamətində döyüşür. Həmsöhbətim o günləri kövrəkliklə xatırlayır. "Müstəqilliyimizi təzəcə əldə edərək çətin günlərimizi yaşayırdıq. Təminat çox pis idi. Tibbi ləvazimatlar çatışmırdı. Buna baxmayaraq özümüzü itirmir, təmkinlə, dözümlə yaralılarımızın sağalmasına ümid verirdik."

Yaşanmış illəri insanın sərvəti sayanlar nə qədər haqlıdırlar. İnsanın yaşadıqca topladığı həyat təcrübəsidi bu sərvət. Dəyəri heç nə ilə ölçülməz. Vahid həkim kimi insanlar dara düşənə kömək etməyi, təkcə özü üçün yaşamamağı həyat amalı bilir. "Sağaltdığım hər kəs ilə yenidən doğulmuşam elə bil..." - Vahid həkim belə deyir.

Həkimlə söhbətimizdə ən çox diqqətimi cəlb edən həmsöhbətimin o ağır günlərdə, odun-alovun içində Tibb İnstitutuna hazırlaşması oldu. Təcrübəli uroloq deyir ki, əlçatmaz xəyalların, arzuların reallaşması yalnız insanın öz gücü ilə mümkündür. "O zaman onlara nə qədər ehtiyac olduğunu dərindən dərk edirdim. Dərk etdikcə bu sənətə olan marağım, istəyim artırdı. Atışma dayananda, sakitlik olanda yaralılara yardım göstərdikdən sonra yaranan imkandan istifadə edib oxuyurdum. Həkim olmaq istəyi məni bir an belə yalqız buraxmadı. İnanırdım ki, bir gün bütün arzularım həyata keçəcək..."

1994-cü ildə Azərbaycan Tibb İnstitutuna daxil olur. 2001-ci ildə institutu da tibb məktəbində olduğu kimi fərqlənmə diplomu ilə bitirir. Müharibənin dəhşətlərini yaşayan Vahid İsmayılov tibb xidməti leytenantı kimi Naxçıvanda hərbi xidmətə başlayır. 2003-cü ilə kimi...



Aprel döyüşlərini olduqca duyğusallıqla xatırlayır. Səsində hiss edilməsi çətin olmayan qürur da var. O qürur deyir ki, Ali Baş Komandanın hər bir əmrinə hazırıq. "İnanıram ki, işğal olunmuş əzəli torpaqlarımızı azad edərək arzusunda olduğumuz Qələbə sevincini yaşayacağıq."

Ehtiyatda olan tibb xidməti zabiti bir insan və həkim olaraq ən böyük xoşbəxtliyini xəstələrini yenidən həyata qaytarmaqda görür. Olumla ölüm arasında olan insanı yenidən həyata qaytardığı əməliyyatlarda keçirdiyi hisslər haqqında soruşduqda, çöhrəsindəki təbəssümü, gözlərindəki sevinci anlaşılmaz qayğılar bürüyür. Bu qayğı bəşəri qayğıdı... Sağalıb ayağa qalxan xəstələr və yaxınları həkimə necə minnətdarlıq edəcəklərini bilmirlər. Həkim onların göz yaşlarına qərq olmuş yaşamaq sevincini, minnətdarlıq dolu baxışlarını bircə təbəssümlə cavablandırır.

- Kiçik bir səhv, ehtiyatsızlıq insanın həyatına son qoya bilər, - Vahid həkim deyir. - Bunun üçün həkim məsuliyyətli olmalı, tibb elminin, öz ixtisasının sirlərinə mükəmməl yiyələnməli, müasir tibbi cihazlarla işləməyi bacarmalı, öyrəndikləriylə kifayətlənməməli, öz üzərində daim işləməli, müasir səhiyyənin tələblərinə uyğun özü də inkişaf etməlidir..."

Xəstələri ilə söhbətini kənardan izləyərkən müsahibimin dolğun mühakimə ilə vəziyyəti qarşısındakına çatdırmaq bacarığına da həsəd aparıram.

Həkim müxtəlif illərdə Moskva, Rumıniya və Sudanda, əsasən də qardaş Türkiyədə kurslar keçib, konfranslarda iştirak edib.

Açıq laparoskopik və endoskopik aparatla əməliyyatlar həyata keçirən təcrübəli həkimin iki kitabı da işıq üzü görüb. "Uro-onkologiya" kitabını Akif Bağırovla, "Urologiyada müayinə üsulları"nı Əftandil Namazovla birlikdə ərsəyə gətirib.

Vahid həkimin sözündə də bir şəfqət var. O, xəstəsini təkcə dava-dərmanla sağaltmır, ən müasir cihazların köməyi ilə xilas etmir. Xəstələrini şirin sözü, ümidli baxışları, xoş davranışı ilə də müalicə edir. Xeyirxah, işgüzar, yaxşı əməl sahibləri həyat durduqca yaşayırlar. Həyatda özündən sonra iz qoyanlar, millətinə, xalqına sədaqətlə xidmət edənlər ömür payını bəşərilik üçün yaşayır. Qüruru Dübrar dağından, əzəməti Qars meşələrindən, duruluğu Ata çayından alan Vahid həkim də məhz belələrindəndir...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# NATO Parlament Assambleyasının 62-ci sessiyası başa çatıb

Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə İstanbulda keçirilən NATO Parlament Assambleyasının (PA) 62-ci sessiyası noyabrın 21-də işini başa çatdırıb.




Sessiyada ölkəmizi Milli Məclis sədrinin birinci müavini, NATO Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərovun başçılığı ilə nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinə Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı və Kamran Bayramov daxil olublar.

Sessiyanın sonuncu günü Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, NATO-nun baş katibi Yens Stoltenberq, NATO PA-nın prezidenti Maykl Turner, ATƏT PA-nın prezidenti xanım Kristin Muttonen və digərləri çıxış ediblər. Sonra Yens Stoltenberq iştirakçıların suallarını cavablandırıb.

Nümayəndə heyətimizin üzvü Siyavuş Novruzov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, təcavüzkar ölkənin qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları və mövzuya dair digər məqamlarla bağlı geniş məlumat verib, NATO baş katibinə müvafiq suallar ünvanlayıb.

Dörd gün davam edən sessiyada müzakirələr Parlament Assambleyasının siyasət, müdafiə və təhlükəsizlik, iqtisadiyyat və təhlükəsizlik, təhlükəsizliyin mülki sahələri, elm və texnologiyalar komitələrində aparılıb. Müzakirələr "Terrorçuluğa qarşı mübarizədə Avratlantik imkanların və əməkdaşlığın gücləndirilməsi", "NATO və hərbi dəniz qüvvələrinin gələcəyi", "Hücumların qarşısının alınmasında NATO-nun yeni vəzifələri", "Transatlantik təhlükəsizliyə büdcə təsirlərindən doğan yeni çağırışlar", "İŞİD-ə qarşı beynəlxalq hərbi kampaniyalar", "NATO-nun qətiyyətli dəstək missiyası", "Əfqanıstanda NATO-nun qətiyyətli dəstək missiyası", "Kimyəvi, bioloji, radioloji və nüvə terrorçuluğu" və s. mövzuları əhatə edib.

Məruzələr ətrafında çıxışlarda ölkələrin ərazi bütövlüyünün qorunması, sərhədlərin toxunulmazlığı, münaqişələrin qarşısının alınması, qaçqın və məcburi köçkünlərin zəruri ehtiyaclarının ödənilməsi, onların müvəqqəti yaşayış yerləri ilə təmin edilməsi, bu qəbildən olan insanların hüquqlarının qorunması, ayrıseçkilik hallarına, həmçinin terrorçuluğun bütün növlərinə qarşı mübarizədə ikili standartlara yol verilməməsi, bütün bu proseslərə NATO-nun təsir imkanlarının genişləndirilməsi yolları müzakirə olunub.

Müzakirələrdə fəal iştirak edən deputatlarımız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri, BMT Təhlükəsizlik Şurasının, o cümlədən digər beynəlxalq təşkilatların münaqişənin həlli və ölkəmizin ərazi bütövlüyünün tanınması ilə bağlı qərar və qətnamələrinin indiyədək yerinə yetirilməməsi, erməni terror təşkilatlarının Azərbaycan xalqına qarşı törətdikləri çoxsaylı terror aktlarının acı nəticələri və digər məsələlər barədə ətraflı məlumat veriblər. İclaslarda dəfələrlə vurğulanıb ki, müasir dövrdə beynəlxalq məsələlərlə bağlı ədalətsizliklərin əsasını dünyadakı ikili standartlar təşkil edir.

NATO Parlament Assambleyasının 62-ci sessiyasının qətnaməsində bütün suveren dövlətlərin ərazi bütövlüyünün qorunması və sərhəd toxunulmazlığına dair müddəa daxil edilib.

**AZƏRTAC**

# Ermənistan insidentlərin araşdırılması kimi texniki və köməkçi addımı siyasi möhtəkirlik obyektinə çevirir

Son günlər insidentlərin araşdırılması mexanizmi ilə əlaqədar Ermənistanın xarici işlər naziri və digər rəsmi şəxsləri müxtəlif təhrifedici bəyanatlarla çıxış edirlər.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib: "İnsidentlərin araşdırılması mexanizmi hədəf deyil, münaqişənin həllinə xidmət edə biləcək köməkçi vasitələrdən biridir. İlk növbədə ondan başlamalıyıq ki, insidentlər nəyə görə baş verir?

Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransında əhatəli və məzmunlu çıxışı zamanı beynəlxalq auditoriya qarşısında bildirmişdi: "Sual ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan əsgərlərinin nə işi var?..

Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarıldıqdan sonra insidentlər baş verməz, heç onların araşdırılmasına da ehtiyac qalmaz."

H.Hacıyev deyib ki, Ermənistan tərəfindən münaqişənin həlli prosesinin ən vacib hissəsi olan Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması məsələsi qəsdən arxa plana atılır, insidentlərin araşdırılması kimi texniki və köməkçi addım ön plana çəkilir və siyasi möhtəkirlik obyektinə çevrilir. Tamamilə aydındır ki, Ermənistan bu mexanizm adı altında Azərbaycan ərazilərinin işğalını möhkəmləndirməyə və ATƏT-in Minsk qrupunun həmsədrlərinin prezidentlər səviyyəsində verdikləri bəyanatlarda qəbuledilməz və qeyri-davamlı hesab etdikləri status-kvonu saxlamağa çalışır.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Heydər Əliyev xalqımızın ümummilli lideridir.**
**2. Heydər Əliyev və ordu quruculuğu.**

**Mövzu:** *Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısıdır.*

*Heydər Əliyev xalqımızın ümummilli lideridir*

Tarixin gedişini dəyişdirməyə və milləti, dövləti dirçəlişə aparmağa yalnız ağır zəhmət, millətini inkişaf etmiş millətlərin səviyyəsinədək yüksəltmək niyyətli və istedadlı lider qadirdir. Sübut edilmişdir ki, hər yarım əsrdən bir dünya tarixi səhnəsində elə insanlar meydana gəlir ki, öz istedadları, bacarıqları və görünməmiş işgüzarlıqları sayəsində adları bəşəriyyətin böyük əksəriyyətinin pərəstiş obyektinə çevrilir. Hər millətin və dövlətin həyatında elə bir tarixi məqam olur ki, həlledici, taleyüklü anda liderin söylədiyi fikirlər dövlətin və millətin inkişafının proqramına çevrilə bilir. Həmin millətin və dövlətin dinc və ya müharibə dövründə yaşamasının fərqi yoxdur.

XX əsrin 70-ci illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyevin yüksək təşəbbüskarlığı, müdrik siyasəti, səy və bacarığı sayəsində Azərbaycan, sözün həqiqi mənasında, intibah dövrünü yaşamışdır. Həmin illər Azərbaycanın yüksəliş dövrü idi.

Heydər Əliyev məmləkətimizin çiçəklənməsi və inkişafı naminə mərkəzin diqqətini, qayğısını ölkəmizə yönəldə bilmişdi. Bu gün adi hal kimi qiymətləndirdiyimiz hər bir addımı 70-ci illərdə atmaq böyük iradə, cəsarət, səbr və hər şeydən öncə, böyük risk tələb edirdi.

Hər bir proses rasional tərəqqi yolu ilə inkişaf edir. Məhz Heydər Əliyev zəkası və müdrikliyi tarixi varisliyi qoruyub saxlaya bildi, ölkəni yeni demokratik inkişafa doğru apardı və Azərbaycanı sivil ölkələr sırasına çıxardı.

Təsəvvürə gətirmək çətin idi ki, Azərbaycanda iqtisadiyyatın istiqamətini dəyişdirib lazımi məcraya yönəltmək, ölkəni qarmaqarışıqlıqdan və dağıntılardan çıxarmaq, durğunluğu aradan qaldırmaq, ictimai inkişaf üçün əlverişli şərait yaratmaq, Azərbaycanın regional və dünya səviyyəsində siyasi və iqtisadi mövqelərini belə tezliklə gücləndirmək mümkün olacaqdır. Lakin Heydər Əliyev Bakıya qayıdarkən bu məqsədləri qarşıya qoydu və onları gerçəkləşdirə bildi.

Bugünkü Azərbaycan Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin bəhrəsidir. Məhz onun yaratdığı siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkə XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inkişaf etdirir. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir.

Prezident İlham Əliyev dövlət başçısı kimi Nazirlər Kabinetinin ilk iclasındakı dərin məzmunlu və proqram əhəmiyyətli çıxışı ilə iqtisadi və sosial məsələlərin, həmişə olduğu kimi, yenə də ölkə rəhbərliyinin diqqət mərkəzində saxlanıldığını bildirərək demişdir: "Hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin. Əlbəttə, ilk növbədə, hamı insanlara böyük diqqətlə yanaşmalıdır. Biz Azərbaycan xalqı üçün işləyirik".

*Heydər Əliyev və ordu quruculuğu*

Ordu quruculuğu dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi uzunmüddətli və mürəkkəb bir prosesdir. Müasir şəraitdə Azərbaycan Ordusunun formalaşma prosesi üç mərhələdən keçir. Birinci mərhələ 30 avqust 1991-ci il tarixdən 1992-ci il mayın ortalarınadək, ikinci mərhələ həmin vaxtdan 1993-cü ilin noyabrınadək olan dövrü əhatə edir.

Bu sahədə fəaliyyəti tənzimləmək üçün 1991-ci il oktyabrın 9-da Ali Sovet tərəfindən hərb quruculuğu sahəsində ilk hüquqi-normativ sənəd - "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi. Ordu quruculuğunun bu dövrü çox mürəkkəb bir ictimai-siyasi və tarixi şəraiti əhatə edir.

Ordu quruculuğunun üçüncü - əsas mərhələsi 1993-cü ilin noyabrında ümummilli lider Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonrakı dövrü əhatə edir. Ümummilli lider Heydər Əliyevin apardığı işlərin məntiqi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi baş verdi.

Ümummilli lider Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

> *"Mən inanıram ki, Azərbaycan Ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o, Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və qələbə qazanacaqdır."*

Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi. Nizami strukturlar yaradılaraq, hərtərəfli islahatlar aparıldı. Ayrı-ayrı siyasi partiyalara, qurumlara xidmət edən hərbi birləşmələr birdəfəlik ləğv edildi. Ölkə rəhbərliyi orduda mənfi halların aradan qaldırılması, mənəvi-psixoloji mühitin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər gördü, ordu quruculuğu elmi əsaslarla aparıldı və Silahlı Qüvvələrimizin müasir standartlara cavab verməsi üçün hərbi islahatlar həyata keçirilməyə başlandı. Hərbi intizamın, vahid rəhbərliyin möhkəmləndirilməsi, hissə və birləşmələrdə döyüş hazırlığının yüksəldilməsi, ordunun maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığına dövlət səviyyəsində xüsusi diqqət yetirilməsi öz bəhrəsini verdi.

Ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində ölkəmizdə müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər bu gün də uğurla həyata keçirilir.

1971-ci ildə yaradılan, 2014-cü il aprelin 19-da 40 illik yubileyi təntənəli surətdə qeyd olunan C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarının hazırlanmasında və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır.

Ümummilli lider Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı.

Zabit heyətini təkmilləşdirmə, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu hazırlığı kurslarının, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının, 27.02.2004-cü ildən Heydər Əliyev adına Hərbi Lisey, ehtiyat zabitlərin hazırlığı kursunun və Azərbaycan Tibb Universitetində hərbi tibb fakültəsinin yaradılması da Silahlı Qüvvələrin peşəkar, bilikli, Vətəninə sadiq hərbçilərlə komplektləşməsində böyük əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi 2002-ci ilin iyulunda Naxçıvandakı "N" hərbi hissəsində olarkən demişdir: "Mən inanıram ki, Azərbaycan Ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o, Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və qələbə qazanacaqdır".

Müasir dövrdə də Azərbaycanda ordu quruculuğu dövlətin əsas istiqamətlərindən biridir. Ölkənin hərbi qüdrətini artırmaq üçün məqsədyönlü islahatlar həyata keçirilir.

Bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da ümummilli lider Heydər Əliyevin siyasi kursunu layiqli davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir. Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm, nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Bu gün ərazisinin müəyyən hissəsi işğal altında olan, mühüm geostrateji məkanda yerləşən, zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycanın Silahlı Qüvvələri döyüş qüdrətini artırmaqla Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyacağı hər bir tapşırığı yerinə yetirməyə həm peşəkar, həm də mənəvi-psixoloji baxımdan hazır olmaq üçün güc və iradəsini əsirgəmir. Tam əminliklə demək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimiz günü-gündən möhkəmlənir və mətinləşir.

Prezident İlham Əliyev Füzuli rayonunun ərazisindəki "N" hərbi hissəsinin əsgər və zabitləri ilə görüşündə demişdir: "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır".

Dövlətin və xalqın öz ordusuna olan inamı və etimadı Silahlı Qüvvələrimizin şəxsi heyətini daha da nümunəvi xidmət etməyə, hər tapşırığı böyük məsuliyyət hissi ilə yerinə yetirməyə ruhlandırır.

Söz yox ki, ümummilli liderimiz Heydər Əliyevin böyük ömür yolundan, xalqa həsr olunmuş tarixi fəaliyyətindən nümunə götürən hərbi qulluqçularımız qarşıya qoyulan mühüm döyüş vəzifələrinin öhdəsindən gəlmək üçün var qüvvələrini əsirgəməyəcəklər.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Respublika Veteranları Təşkilatında fəaliyyət müzakirə olunur

Noyabrın 22-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VI plenumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, təşkilatın üzvləri, müharibə, əmək, Silahlı Qüvvələr və Qarabağ müharibəsi veteranları iştirak edirlər.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Plenumu açıq elan edib. O bildirib ki, VI Plenum Respublika Veteranları Təşkilatının cari il üzrə Tədbirlər Planına və Rəyasət Heyətinin qərarlarına uyğun olaraq keçirilir. Plenumda təşkilatın cari ildəki fəaliyyəti, həmçinin onun nizamnaməsinə dəyişikliklərin və əlavələrin edilməsi məsələləri müzakirə olunacaq.

Gündəlik təsdiq olunduqdan sonra C.Xəlilov Respublika Veteranlar Təşkilatının 2016-cı ildə fəaliyyətinin yekunlarına və gələn il qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib.



Ümummilli lider Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi bu ənənənin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Qeyd edilib ki, hesabat dövründə təşkilatın nüfuzunun yüksəldilməsi, veteran təşkilatlarının ictimai həyatda fəallığının artırılması istiqamətində mühüm addımlar atılıb. Veteranların sosial problemlərinin həlli onların fəallığının yüksəlməsinə, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində daha yaxından iştiraklarına müsbət təsir göstərib.

Bildirilib ki, hesabat dövründə təşkilatın Rəyasət Heyətinin iclaslarında bir sıra aktual problemlər, o cümlədən veteranların sosial müdafiəsi məsələsi müzakirə edilib, onlara əməli kömək göstərilib. Bu il veteranlarımız faşizm üzərində Qələbənin 71-ci ildönümünü təntənəli şəkildə qeyd etməklə yanaşı, Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı referendumda (ümumxalq səsverməsi) fəal iştirak ediblər.

Gələn il qarşıda duran vəzifələr haqqında danışan C.Xəlilov deyib ki, Respublika Veteranlar Təşkilatının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi ilə bağlı müvafiq tədbirlər planı hazırlanıb.

Sonra məruzə ətrafında çıxışlar olub, təşkilati məsələlərə baxılıb.

*Son günlər Sarqsyan rejimi tərəfindən təqdim edilən "Ölən və yaralanan hərbçilərin sosial müdafiəsinin təmin edilməsi ilə bağlı qanun layihəsi" Ermənistan parlamentində, eləcə də, mətbuatında qızğın mübahisə və müzakirə obyektinə çevrilib.*

Şərh

# Sarqsyan rejimi ordusunu saxlamaq üçün xalqı soyur

Diqqət çəkən iki məqam var: əhalinin narazılığına və narahatlığına səbəb olan qanun layihəsinə görə, işləyən hər Ermənistan vətəndaşından məcburən 1000 dram tutulması və Ermənistanın "İrs" partiyasından olan deputat Zarui Postancyanın parlamentdə müzakirələr zamanı səsləndirdiyi fikirlər.

Hər iki məsələ Ermənistanda böyük təlaş yaradıb. Deputat qanun layihəsi müzakirə edilərkən belə deyib: "1996-cı ildən bu günə qədər ordumuzda qeyri-döyüş itkiləri 950 nəfərdir. Amma rəsmi olaraq. Qeyri-rəsmi hesablamlar isə bunun dəfələrlə artıq, yəni 2000-dən çox olduğunu göstərir. "Bunun cavabını kim verəcək?"

Erməni xalqı haqlı yerə təlaş içindədir. Müstəqil ekspertlərin hesablamalarına görə Ermənistanda hökm sürən kriminal hərbi-siyasi rejimin səriştəsizliyi, orduda baş alıb gedən özbaşınalıq, rüşvətxorluq və intizamsızlıq səbəbindən 10 minə yaxın hərbçi ya ölüb, ya da əlil olub. Əgər bu illər ərzində döyüş itkilərini də hesablasaq, onda bu rəqəm həqiqətən erməni xalqını vahimə içində olmağa, qorxmağa və belə bir rejimin xalqı hara apara biləcəyini düşünməyə sövq edər.

1000 dram, əslində, hazırda mövcud olan valyuta kursu ilə cəmi 2,1 dollardır və bu gün Ermənistanda vəziyyət o qədər acınacaqlıdır ki, bu 2,1 dolların ailə büdcəsindən ayrılması minlərlə insanın narazılığına səbəb olub. Ölkədə bu məbləğ cüzi də olsa yaşamaq üçün ümid yeridir.

Bu gün Ermənistanda hökm sürən kriminal rejim əhalini hədə-qorxu altında saxlayır. Son vaxtlar dünyanın müxtəlif yerlərindən aldadılaraq "Ermənistana köçmək istəyən" erməniləri də zorla işğal altında olan ərazilərə yerləşdirməyə səy göstərirlər. Vəziyyət o qədər acınacaqlıdır ki, "könüllü köçkünlər" nəinki Qarabağda, hətta Yerevan ətrafında belə yaşamağa razı olmurlar. Danılmaz faktdır ki, Sarqsyan rejiminin yaritmazlığına görə belə acınacaqlı vəziyyət ordunu da öz ağuşuna alıb. Bunu son günlər orada baş verən ölüm və intihar hadisələri də təsdiqləyir.

Ermənistan mətbuatının yaydığı xəbərlərin icmalı göstərir ki, başqa bir Sarqsyan da siyasətə qoşulub. Aydın görünür ki, Serj və Viqen cütlüyü ordunu saxlamaq üçün ya dilənməyə, ya da camaatı soymağa məcburdur. Belə ki, Ermənistanın yeni müdafiə naziri Viqen Sarqsyan son günlər bir-birindən fərqli açıqlamalarında deyir: "Hər kəs orduya 1000 dram ödəsin, könül istəyən artıq da ödəyə bilər. Əgər hər kəs ordunun xeyrinə 1000 dram ödəyərsə, bu, orduya kömək edər." O, daha sonra deyir: "Bəzi biznesmenlər orduya kömək edirlər, amma bu haqda danışmır, bunu dilə gətirmirlər". Bir neçə gün sonra isə erməni saytı "news.am" belə bir xəbər yayır ki, "Ermənistan Müdafiə naziri pullu dayanacaqlar hesabına orduya kömək edilməsini müzakirə etməyə hazırdır". Daha sonra davamlı xəbərlər yayılır ki, Müdafiə Nazirliyi yaralı əsgərin müalicəsini təşkil etməyə pul tapmır. Başqa xəbərdə isə Müdafiə Nazirliyi erməni əsgərləri üçün kartof, soğan almağa imkan olmadığından ərzağı fermer təsərrüfatlarından birbaşa və ucuz qiymətə almaq üçün bölgələrdə "xüsusi qurumların" işə cəlb edilməyini bildirir.

Təbii ki, tez bir zamanda Ermənistanda daim təzyiqlərə məruz qalan ictimaiyyət nümayəndələri və deputatlar tərəfindən V.Sarqsyanın bu məsuliyyətsiz açıqlamalarına sərt cavablar gəlib. İlk olaraq Ermənistan parlamentinin deputatı Edmon Marukyan Müdafiə naziri V.Sarqsyanın açıqlamalarına və müzakirəyə çıxarılan 1000 dramın tutulması ilə bağlı layihənin parlamentdə müzakirəsində çıxış edərkən sərt fikirlər səsləndirib. Deputat deyir ki, guya ordunun xeyrinə kasıb camaatdan pul toplamaq barədə zorla qanun qəbul etdirmək əvəzinə, sadəcə, dövlətin pulunu səmərəli xərcləmək lazımdır. "Kurort zonası Dilicanda kompleks tikdirməsəydiniz, bəzi partiya koalisiyalarına xeyir gəlsin, xoş olsun deyə mərkəzi və yerli idarəetmə aparatlarını lazımsız yerə bu qədər şişirtməsəydiniz, bir çox lazımsız israfçılığa yol verməsəydiniz və bütün bunları orduya xərcləsəydiniz, cəmiyyətdə də suallar yaranmazdı ki, dövlət vəsaiti hara gedir, hara xərclənir?"

Erməni xəbər resursu 1in.am saytı yazır: "Ermənistan vətəndaşlarının, işləyən hər kəsin əmək haqlarından 1000 dram tutmaq, ölü və yaralı əsgərlərin ailələrinin sosial ehtiyaclarının həllinə yönəltmək təşəbbüsü ilə bağlı Müdafiə naziri V.Sarqsyanın sözləri şantaj kimi səslənir və eyni zamanda hakimiyyət orqanlarının məsuliyyətsizliyinin kifayət qədər böyük dozada olduğunu göstərir."

Məqalədə daha sonra deyilir: "Əgər biz güclü ölkədə yaşamaq istəyiriksə, rüşvətxor həbsdə olmalı, onun əmlakı ictimaiyyətin, o cümlədən ordunun ehtiyaclarının ödənilməsinə yönəldilməlidir. Əgər biz güclü ölkədə yaşamaq istəyiriksə, ön xətdə kasıb ailələrin oğulları ilə yanaşı, imkanlı ailələrin də oğulları dayanmalıdırlar, orduda xidmət etməyənlər isə yüksək vəzifələr tutmamalı, Müdafiə Nazirliyi tərəfindən mükafatlar almamalıdırlar.

Əgər biz güclü ölkədə yaşamaq istəyiriksə, hər kəsdən mütləq qaydada 1000 dram tutulması barədə qərarın qəbul olunmasından əvvəl daha vacib addımlar atılmalıdır. Hakimiyyətin cəmiyyətin hesabına istədiyi kimi yaşadığı, cəmiyyətin həyatı üçün isə qiymət və şərtlərin qoyulduğu ölkə güclü ola bilməz."

Qanunun müzakirələri zamanı "İrs" partiyasından olan deputat Zarui Postancyanın çıxışı da kəskin olub. "Qədimdə saray qadınları orduya kömək üçün öz zinət əşyalarını verirdilər, indi isə sabiq Müdafiə nazirinin xanımı bir neçə ildə milyoner olub, o da hamı kimi min dram ödəyəcəkmi? Ermənistan hakimiyyəti dilənçilik haqqında qanun yazıb" - deməklə erməni deputat məsələyə çox düzgün münasibət sərgiləyib.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Xəbərlər:
## hadisələr, faktlar

### Kabil məscidində partlayış: 32 ölü, 50-dən çox yaralı



Əfqanıstanın paytaxtı Kabil şəhəri yaxınlığındakı şiə məscidində törədilən partlayış nəticəsində həlak olanların sayı azı 32 nəfərə çatıb, 50-dən çox insan isə yaralanıb.

Bu barədə məlumat BMT-nin Əfqanıstan üzrə missiyasının saytında yerləşdirilib. Missiyanın məlumatına görə, ölənlər və yaralananlar arasında çoxlu sayda uşaq var. Terrorçu-kamikadze özünü Kabil ətrafındakı Dar ul-Aman rayonundakı məscidin içərisində partladıb. Partlayış dindarların Məhəmməd Peyğəmbərin nəvəsi imam Hüseynin qətlə yetirilməsinin ildönümü ilə əlaqədar məsciddə keçirilən matəm mərasiminə toplaşdıqları zaman törədilib.

### Pakistan-Hindistan sərhədində baş verən atışmada bir əsgər öldürülüb



Pakistan-Hindistan sərhədinin Kəşmir ərazisində baş verən atışmada Hindistan təhlükəsizlik qüvvələrinin bir əsgəri öldürülüb, üç nəfər yaralanıb.

Yayılan digər məlumatda isə Pakistanın Sind əyalətində sərhədi pozduğuna görə 43 hindli balıqçısının saxlanıldığı bildirilir. Balıqçılar artıq Kəraçi şəhər polisinə təhvil verilib və onlar məhkəmə qarşısına çıxarılacaqlar.

### Rusiya və ABŞ prezidentləri Peruda görüşüblər



Perunun paytaxtı Limada keçirilən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı (APEC) Sammitində Rusiya Prezidenti Vladimir Putin ilə ABŞ Prezidenti Barak Obama arasında qısa görüş olub.

Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib. O bildirib ki, Sammit çərçivəsində keçirilən iclasın əvvəlində dövlət başçıları bir-birini salamlayıb, aralarında qısa söhbət olub.

### Misir Prezidentinə qarşı hazırlanan iki sui-qəsdin qarşısı alınıb



Misirin təhlükəsizlik qüvvələri ölkə Prezidenti Əbdülfəttah əs-Sisiyə qarşı iki sui-qəsd cəhdinin qarşısını alıb.

Bunu Misirin baş prokuroru Nabil Sadek bildirib. Baş prokuror qeyd edib ki, biri Səudiyyə Ərəbistanında olmaqla, iki terrorçu qrup Misir Prezidentini öldürməyi planlaşdırırmış. Sui-qəsd cəhdlərindən birinin Misir Prezidentinin Məkkədə ümrə ziyarəti zamanı həyata keçirilməsi nəzərdə tutulurmuş.

### Çində zəncirvarı qəzada ölənlərin sayı 17 nəfərə çatıb



Çində noyabrın 21-də zəncirvarı avtomobil qəzasında ölənlərin sayı 17 nəfərə çatıb. Hadisə nəticəsində 37 nəfər yaralanıb.

Hadisə Pekin-Kunmin avtomagistralının Pinyan şəhərindən keçən hissəsində baş verib. Qəza nəticəsində 56 avtomobil, o cümlədən yük və minik avtomobili, avtobus bir-biri ilə toqquşub. Yaralılar xəstəxanalara çatdırılıb. Hadisənin qarlı və yağışlı hava nəticəsində yolun sürüşkən olması səbəbindən baş verdiyi bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Kursantlar birinci oldular



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdikləri birincilikdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları komanda hesabında qalib gəliblər.

Yüngül atletika üzrə ali və orta ixtisas təhsili müəssisələrinin atletləri arasında Muxtar Respublika birinciliyi keçirilib. Naxçıvan Qarnizonunun Hərbi Orkestrinin müşayiəti ilə Muxtar Respublikanın stadionunda keçirilən birincilik maraqlı anları və gərgin mübarizə şəraiti ilə yadda qalıb.

Birinciliyin yekun nəticələrinə görə oğlanlar arasında Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından 100 m məsafəyə qaçışda II yerə Ayxan Əliyev, 200 m məsafəyə I yerə Vəli Canməmmədov, II yerə Şamxal Həsənov, 400 m məsafədə I yerə Rəhsul Qasımov, 800 m məsafədə I yerə Mustafa Musayev, 1500 m məsafədə I yerə Ziyarət Vəliyev layiq görülüblər.



Mükafatlandırma mərasimində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov və Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov qalibləri təbrik edərək, iştirakçılara uğurlar arzulayıblar. Qalib idmançılara diplom və hədiyyələr, həmçinin birinciliyin qalibi olan Heydər Əliyev adına Hərbi Liseyin komandasına kubok təqdim edilib.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# Fransa mətbuatında Dağlıq Qarabağ münaqişəsindən bəhs olunub

*Fransanın "islamnews.fr" saytında "Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq hüquqa riayət etməyə çağırır" adlı məqalə dərc olunub.*

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 20-ci əsrin əvvəllərində (1919-cu ildə ingilislər və 1921-ci ildə sovetlər tərəfindən) başladığı və bu ərazilərin ölkəmizə məxsus olduğu diqqətə çatdırılır. 1988-ci ilin fevral və 1994-cü ilin may aylarında Azərbaycanın cənub-qərbində yerləşən Dağlıq Qarabağ regionunda yenidən silah səslərinin eşidildiyi bildirilir.

Müəllif beynəlxalq birliyin Dağlıq Qarabağı Azərbaycanın tarixi əraziləri kimi tanıdığını vurğulayır. Bildirir ki, Ermənistan qoşunlarının bu ərazilərdən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı, eləcə də bu təşkilatın Baş Assambleyasının 2008-ci ildə qəbul etdiyi 62243 saylı qətnamələrinə riayət etmir, Azərbaycanın tarixi torpaqlarının hələ də qeyri-qanuni olaraq işğal altında saxlayır.

Məqalədə erməni işğalçı qüvvələrinin Dağlıq Qarabağda yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yürütdüyü, doğma yurdlarından didərgin salınmış bir milyondan artıq azərbaycanlının öz evlərinə qayıda bilmədiyi və işğal olunmuş ərazilərdə erməniləşmə prosesi apardığı diqqətə çatdırılır.

Qeyd olunur ki, Azərbaycan xalqı haqq səsini Prezident İlham Əliyev vasitəsilə beynəlxalq birliyə çatdırır.

Məqalədə Fransada erməni lobbisinin bu məsələyə təsirinə də toxunulur.

Həmçinin bildirilir ki, Fransanın bir qrup deputat və senatoru cari ilin aprelində "Figaro" qəzeti vasitəsilə Prezident Fransua Ollanda açıq məktubla müraciət edib. Müraciətdə Prezident Ollanddan BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransanın Ermənistanın beynəlxalq hüquqa riayət etməsi və öz qoşunlarını Azərbaycanın tarixi torpaqlarından çıxarması üçün nüfuzundan istifadə etməsi xahiş olunub.

Sonda müəllif ölkəmizdə yəhudilərin, xristianların və müsəlmanların harmoniya şəraitində yaşadıqlarını diqqətə çatdırır, Fransa mətbuatının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı susqunluq nümayiş etdirməsinin təəccüb doğurduğunu bildirir.

**AZƏRTAC**

# İdman

## Azərbaycanlı idmançı muay-tay üzrə dünya çempionu olub



Fransanın Marsel şəhərində idmanın muay-tay növü üzrə dünya çempionunun kəməri uğrunda döyüş keçirilib.79,3 kiloqram çəki dərəcəsində çıxış edən azərbaycanlı idmançı Alim Nəbiyev fransalı Yohan Lidon ilə qarşılaşıb. "Qəbələ" idman klubunun təmsilçisi beş raund davam edən döyüşdə xal hesabı ilə qalib gələrək WMS versiyası üzrə dünya çempionu adını qazanıb.

## İdmançılarımız 4 qızıl medal qazanıblar



İtaliyanın Eboli şəhərində keçirilən pankration üzrə dünya çempionatında Azərbaycan idmançıları 4-ü qızıl və 1-i gümüş olmaqla beş medal qazanıblar. Azərbaycan Pankration, Qrappling və MMA Federasiyasından bildiriblər ki, "Neftçi İdman Klubu"nun yetirmələrindən Pərviz Qasımov (53 kq), Ömər Mutayev (78 kq), Amil Məhərrəmli (85 kq), Seymur Quliyev (93 kq) qızıl, Xəyalə Əsgərova (57 kq) isə gümüş medal qazanıblar.

## Cüdoçumuz dünya çempionatında bürünc medal qazanıb



ABŞ-ın Mayami şəhərində veteran cüdoçular arasında keçirilən dünya çempionatında Azərbaycan millisi daha bir medal qazanıb. M-4 kateqoriyası üzrə 81 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Mübariz Cəfərov mundialın bürünc medalına sahib olub. Dünya çempionatında keçirdiyi altı görüşdən yalnız birində uduzan Azərbaycan təmsilçisi bürünc medal uğrunda qarşılaşmada Rusiya idmançısına qalib gəlib.

Qeyd edək ki, buna qədər Azərbaycan millisi veteranların dünya çempionatında iki qızıl medal qazanıb. Fərhad Rəcəbli və Zaur Paşayev bütün rəqiblərinə qalib gələrək dünya çempionu olublar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Hərbi yeniliklər, ənənələr

## F-35 qırıcı-bombardmançısı

ABŞ Silahlı Qüvvələrinin 5-ci nəsildən olan F-35 qırıcıları tarixdə ən bahalı silahlanma sistemi sayılır və bu qırıcıların 2070-ci ilə qədər silahlanmada qalacağı gözlənilir.

F-35 qırıcısı çoxməqsədli döyüş maşınıdır, onun hazırlanmasında "stels" texnologiyasından istifadə edilib və nüvə döyüş başlıqlarını daşımağa qadirdir. Onun layihəsi üzərində bir sıra ölkələr işləməkdədir. ABŞ Müdafiə Nazirliyinin məlumatına görə, F-35 qırıcılarının hazırlanması üzrə proqramın həyata keçirilməsinə 396 milyard dollar vəsait xərclənəcək.



Onun modeli F-35A qırıcısıdır. Texniki-taktiki xüsusiyyətlərinə gəldikdə qanadlarının açılması 10,70 metr, uzunluğu 15,67 metr, hündürlüyü 4,33 metr, qanadlarının sahəsi 42,70 kvadrat metr, boş halda çəkisi 13300 kiloqram, maksimal uçuş çəkisi 31800 kiloqram təşkil edir. Təyyarənin maksimal sürəti saatda 2065 kilometr, döyüş hərəkət radiusu 1100 kilometr təşkil edir. Qırıcının heyəti bir nəfərdən ibarətdir. F-35 qırıcısının silahlanmasına 20 mm-li altılüləli top daxildir. Döyüş yüklənməsi 5000 kiloqramdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Gizir Mirzəliyev Elşən Ağa oğluna 2009-cu ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 571
Nüsxə 4650